**https://doi.org/10.58225/tim.2025-3-177-182**

**Ş.İ.Əliyev**
***doktorant, Azərbaycan Memarlıq və İnşaat Universiteti***
***ORCID 0000-0001-7272-3417***

# DÖVLƏT-ÖZƏL ƏMƏKDAŞLIĞININ İNNOVATİV İNKİŞAFDA ROLU: AZƏRBAYCAN PRAKTİKASINDA YANAŞMALAR VƏ PERSPEKTİVLƏR

**Xülasə**

*Məqalədə dövlət və özəl sektorun qarşılıqlı fəaliyyətinin innovativ inkişafın sürətləndirilməsindəki rolu təhlil edilir. Dövlət-özəl əməkdaşlığı (DÖƏ) mexanizmlərinin səmərəli təşkili innovasiya resurslarının artırılmasına, texnoloji potensialın inkişafına və regionların sosial-iqtisadi dirçəlişinə şərait yaradır. Tədqiqatda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası prosesində dövlət və özəl subyektlərin birgə fəaliyyətinin xüsusiyyətləri araşdırılır, mövcud mexanizmlərin təkmilləşdirilməsi istiqamətləri müəyyən edilir.*

***Açar sözlər:*** *dövlət-özəl əməkdaşlığı, innovasiya, iqtisadi inkişaf, Qarabağ, Şərqi Zəngəzur, innovasiya sistemi, strateji idarəetmə.*

## GİRİŞ

Müasir iqtisadi şəraitdə innovasiya siyasətinin uğuru dövlət və özəl sektor arasında qurulan balanslı və qarşılıqlı faydalı münasibətlərdən asılıdır. Dövlət-özəl əməkdaşlığı yalnız infrastruktur layihələrinin həyata keçirilməsi üçün deyil, həm də elmi-tədqiqat və innovasiya fəaliyyətinin genişləndirilməsi üçün effektiv idarəetmə alətinə çevrilmişdir.

Azərbaycan Respublikasında aparılan iqtisadi islahatlar, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" strategiyası, həmçinin Qarabağ və Şərqi Zəngəzurun bərpası üzrə dövlət proqramları göstərir ki, DÖƏ modeli artıq milli innovasiya sisteminin mühüm tərkib hissəsidir. Dövlət-özəl əməkdaşlığının birgə fəaliyyətinin digər səmərəli nəticəsi innovativ inkişafa ayrılan resursların həcminin artması üçün əlverişli şəraitin yaradılması və onun birbaşa iştirakçıların, eləcə də əlaqəli strukturlarının elmi, texnoloji və innovativ potensialının yüksəldilməsindən ibarətdir. Konkret fəaliyyət istiqamətləri üzrə yönəldilmiş maliyyə və intellektual nəticələrin tərəfdaşlar arasında səmərəli bölüşdürülməsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazilərinin bərpa və yenidən qurulması istiqamətində həyata keçirilən infrastruktur layihələrinin xüsusiyyətlərini nəzərə alan mexanizmlərin yaradılması və mütəmadi olaraq təkmilləşdirilməsi bu əməkdaşlığın prioritetlərindəndir.

Dövlət özəl subyektlərinin birgə fəaliyyətləri nəticəsində əldə edilmiş nailiyyətlərin ictimailəşdirilməsi, əməkdaşlığın yeni formaları, mexanizmləri və tətbiq sahələrinin müəyyən edilməsinə kömək edər, bu isə son nəticədə təşkilati, idarəetmə və sosial sahələrdə tərəfdaşlığın yeni formalarının yaradılmasına səbəb olar. Eyni zamanda, dövlət-özəl tərəfdaşlığının fəaliyyət istiqaməti kimi bir məqsədə çevrilməsindən çəkinmək lazımdır. [2]

Araşdırılan problem milli innovasiya sistemlərində prioritet olan dövlət və özəl əməkdaşlıq mexanizmlərinin birgə təkamülü kimi baxılmalıdır. İnnovasiya prosesində özəl biznes səylərinin üstünlük təşkil etdiyi ölkələrdə təşəbbüskar tərəfdaşlıq modelləri üstünlük təşkil edir. İnnovativ inkişaf üçün milli resursların əhəmiyyətli hissəsinə nəzarət edən dövlətlər ilk növbədə dövlət-özəl əməkdaşlığı dəstəkləyən fəaliyyət növlərinə xüsusi diqqət yetirirlər. Əgər qlobal innovasiya prosesində lider olan dövlətlərdə dövlət-özəl tərəfdaşlıq artıq qurulmuş innovasiya sistemlərini təkmilləşdirməyə yönəlibsə, Azərbaycanda hal-hazırda dövlət proqramları, inkişaf konsepsiyaları

və strategiyalar bu istiqamətdə nəzərdə tutulmuş tədbirlərə müvafiq dövlət və özəl əməkdaşlığı səmərəli təşkil və idarə edilməsinə yönəldilmiş elmi-tədqiqat və praktiki işlər aparılır, müvafiq mexanizmlər işlənilir və beynəlxalq təcrübələr nəzərə alınaraq mütəmadi təkmilləşdirilir.

Bu fəaliyyət istiqamətlərini təmin etmək üçün innovasiya sisteminin ilkin mərhələsindən Azərbaycanda dövlət və özəl əməkdaşlığın səmərəli təşkili məqsədilə müvafiq dövlət proqramları və inkişaf strategiyaları işlənilir və onların həyata keçirilməsinə dövlət və sahibkarlıq subyektləri icraçı kimi müəyyənləşdirilir və bu tədbirlərin icra müddətinə müvafiq yerinə yetirilməsi təmin edilir. Eyni zamanda bu proqram, inkişaf konsepsiyaları və strategiyalarda digər tədbirlərlə yanaşı qeyd olunan istiqamətlər üzrə işlərin müəyyən edilmiş icraçılar tərəfindən yerinə yetirilmə vəziyyətinə nəzarət və bu prosesdə dövlət–özəl subyektlərinin fəaliyyətlərini dəyərləndirmək məqsədi ilə Azərbaycanda nazirlik, komitə və təşkilatlarda müvafiq strukturlar yaradılmışdır.

Strukturların əsas vəzifəsi dövlət proqramları və inkişaf strategiyalarında nəzərdə tutulan tədbirlərin icra vəziyyətini araşdırmaq, dəyərləndirmək və yeni dövr üçün hazırlanan proqram və strategiyalar üçün başqa istiqamətlərlə yanaşı dövlət və özəl əməkdaşlıq çərçivəsində həyata keçirilməsi prioritet olan tədbirləri işləmək və müvafiq qurumlara təqdim etməkdən ibarətdir.

Eyni zamanda bu proseslərin hazırlanması və həyata keçirilməsində dövlət və özəl əməkdaşlığının səmərəli aparılmasında ərazi və məkan amillərinə xüsusi diqqət edilməlidir. Beynəlxalq təcrübənin araşdırılması göstərir ki, qlobal innovasiya strukturlarının formalaşmasına baxmayaraq radikal innovasiyalar, xüsusən də yüksək texnologiyalı sənayelərdə mikro və makro səviyyələrdə dövlət və özəl subyektlərin tərəfdaşlıq fəaliyyətlərinin bir sıra istiqamətlərdə optimal əlaqələrinin yaradılması zəruri amil olub, fəaliyyət istiqamətlərində birləşməsi tələb olunur.

Bunlarla yanaşı xüsusi olaraq göstərmək lazımdır ki, ölkənin mərkəzi istehsal və qeyri-istehsal strukturları ilə yanaşı, regional strukturların birgə fəaliyyəti ölkə iqtisadiyyatının inkişafının kifayət qədər innovativ zənginliyini təmin edə bilər. İqtisadi reallıq kimi dövlət və özəl əməkdaşlığının səmərəli təşkili və şaxələndirilməsi regionların sosial-iqtisadi inkişaf göstəriciləri ilə əlaqədardır. [1]

Dövlət-özəl əməkdaşlığının birgə fəaliyyətinin digər səmərəli nəticəsi innovativ inkişafa ayrılan resursların həcminin artması üçün əlverişli şəraitin yaradılması və onun birbaşa iştirakçıların, eləcə də əlaqəli strukturlarının elmi, texnoloji və innovativ potensialının yüksəldilməsindən ibarətdir. Konkret fəaliyyət istiqamətləri üzrə yönəldilmiş maliyyə və intellektual nəticələrin tərəfdaşlar arasında səmərəli bölüşdürülməsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazilərinin bərpa və yenidən qurulması istiqamətində həyata keçirilən infrastruktur layihələrinin xüsusiyyətlərini nəzərə alan mexanizmlərin yaradılması və mütəmadi olaraq təkmilləşdirilməsi bu əməkdaşlığın prioritetlərindəndir.

Dövlət özəl subyektlərinin birgə fəaliyyətləri nəticəsində əldə edilmiş nailiyyətlərin ictimailəşdirilməsi, əməkdaşlığın yeni formaları, mexanizmləri və tətbiq sahələrinin müəyyən edilməsinə kömək edər, bu isə son nəticədə təşkilati, idarəetmə və sosial sahələrdə tərəfdaşlığın yeni formalarının yaradılmasına səbəb olar. Eyni zamanda, dövlət-özəl tərəfdaşlığının fəaliyyət istiqaməti kimi bir məqsədə çevrilməsindən çəkinmək lazımdır.

Araşdırılan problem milli innovasiya sistemlərində prioritet olan dövlət və özəl əməkdaşlıq mexanizmlərinin birgə təkamülü kimi baxılmalıdır. İnnovasiya prosesində özəl biznes səylərinin üstünlük təşkil etdiyi ölkələrdə təşəbbüskar tərəfdaşlıq modelləri üstünlük təşkil edir.

İnnovativ inkişaf üçün milli resursların əhəmiyyətli hissəsinə nəzarət edən dövlətlər ilk növbədə dövlət-özəl əməkdaşlığı dəstəkləyən fəaliyyət növlərinə xüsusi diqqət yetirirlər. Əgər qlobal innovasiya prosesində lider olan dövlətlərdə dövlət-özəl tərəfdaşlıq artıq qurulmuş innovasiya sistemlərini təkmilləşdirməyə yönəlibsə, Azərbaycanda hal-hazırda dövlət proqramları, inkişaf konsepsiyaları və strategiyalar bu istiqamətdə nəzərdə tutulmuş tədbirlərə

müvafiq dövlət və özəl əməkdaşlığı səmərəli təşkil və idarə edilməsinə yönəldilmiş elmi-tədqiqat və praktiki işlər aparılır, müvafiq mexanizmlər işlənilir və beynəlxalq təcrübələr nəzərə alınaraq mütəmadi təkmilləşdirilir.

Bu fəaliyyət istiqamətlərini təmin etmək üçün innovasiya sisteminin ilkin mərhələsindən Azərbaycanda dövlət və özəl əməkdaşlığın səmərəli təşkili məqsədilə müvafiq dövlət proqramları və inkişaf strategiyaları işlənilir və onların həyata keçirilməsinə dövlət və sahibkarlıq subyektləri icraçı kimi müəyyənləşdirilir və bu tədbirlərin icra müddətinə müvafiq yerinə yetirilməsi təmin edilir. Eyni zamanda bu proqram, inkişaf konsepsiyaları və strategiyalarda digər tədbirlərlə yanaşı qeyd olunan istiqamətlər üzrə işlərin müəyyən edilmiş icraçılar tərəfindən yerinə yetirilmə vəziyyətinə nəzarət və bu prosesdə dövlət–özəl subyektlərinin fəaliyyətlərini dəyərləndirmək məqsədi ilə Azərbaycanda nazirlik, komitə və təşkilatlarda müvafiq strukturlar yaradılmışdır.

Bu strukturların əsas vəzifəsi dövlət proqramları və inkişaf strategiyalarında nəzərdə tutulan tədbirlərin icra vəziyyətini araşdırmaq, dəyərləndirmək və yeni dövr üçün hazırlanan proqram və strategiyalar üçün başqa istiqamətlərlə yanaşı dövlət və özəl əməkdaşlıq çərçivəsində həyata keçirilməsi prioritet olan tədbirləri işləmək və müvafiq qurumlara təqdim etməkdən ibarətdir.

Eyni zamanda bu proseslərin hazırlanması və həyata keçirilməsində dövlət və özəl əməkdaşlığının səmərəli aparılmasında ərazi və məkan amillərinə xüsusi diqqət edilməlidir. Beynəlxalq təcrübənin araşdırılması göstərir ki, qlobal innovasiya strukturlarının formalaşmasına baxmayaraq radikal innovasiyalar, xüsusən də yüksək texnologiyalı sənayelərdə mikro və makro səviyyələrdə dövlət və özəl subyektlərin tərəfdaşlıq fəaliyyətlərinin bir sıra istiqamətlərdə optimal əlaqələrinin yaradılması zəruri amil olub, fəaliyyət istiqamətlərində birləşməsi tələb olunur.

Bunlarla yanaşı xüsusi olaraq göstərmək lazımdır ki, ölkənin mərkəzi istehsal və qeyri-istehsal strukturları ilə yanaşı, regional strukturların birgə fəaliyyəti ölkə iqtisadiyyatının inkişafının kifayət qədər innovativ zənginliyini təmin edə bilər. İqtisadi reallıq kimi dövlət və özəl əməkdaşlığının səmərəli təşkili və şaxələndirilməsi regionların sosial-iqtisadi inkişaf göstəriciləri ilə əlaqədardır.

Nəticə olaraq qeyd etmək olar ki, dövlət-özəl əməkdaşlığının innovativ inkişafın təmin olunmasında rolu çoxşaxəlidir. Bu əməkdaşlıq modeli yalnız iqtisadi səmərəlilik baxımından deyil, həm də sosial və elmi-texnoloji tərəqqi istiqamətində əhəmiyyətli təsir göstərir. Müasir şəraitdə innovasiya sistemlərinin inkişafında dövlətin rolu daha çox tənzimləyici, təşviqedici və koordinasiyaedici xarakter daşıyır. Özəl sektor isə resursların çevik idarəedilməsi, bazar tələblərinə uyğun yeni texnologiyaların tətbiqi və təşəbbüskarlığın artırılması istiqamətində mühüm funksiyaları yerinə yetirir. [1]

Azərbaycan Respublikasında dövlət-özəl əməkdaşlığının genişləndirilməsi istiqamətində həyata keçirilən siyasətlər ölkənin innovativ iqtisadiyyat modelinə keçidini sürətləndirir. Bu prosesdə dövlətin əsas vəzifəsi sahibkarların təşəbbüslərinin dəstəklənməsi, investisiya risklərinin azaldılması, texnoparklar, sənaye zonaları və innovasiya mərkəzlərinin fəaliyyətinin stimullaşdırılmasıdır. Özəl sektor üçün isə əsas hədəf texnoloji yeniliklərin tətbiqi və rəqabətqabiliyyətli məhsulların istehsalıdır.

Dövlət və özəl tərəfdaşlığının qarşılıqlı əlaqəsi innovativ iqtisadiyyatın formalaşmasında əsas hərəkətverici qüvvə kimi çıxış edir. Bu əməkdaşlığın səmərəliliyini artırmaq üçün qanunvericilik bazasının təkmilləşdirilməsi, kadr potensialının artırılması və beynəlxalq təcrübənin adaptasiyası istiqamətində fəaliyyətlər davam etdirilməlidir.

1. Dövlət-özəl əməkdaşlığının innovasiya prosesində rolu

DÖƏ-nin mahiyyəti dövlətin normativ-tənzimləyici və maliyyə imkanlarının, özəl sektorun isə təşəbbüskarlıq və idarəetmə çevikliyinin birləşdirilməsindən ibarətdir. Bu əməkdaşlıq vasitəsilə:

- innovasiya layihələrinin maliyyə riskləri bölüşdürülür;
- texnoloji potensialın artırılması üçün əlverişli mühit yaradılır;
- elmi-tədqiqat müəssisələrinin nəticələri praktik sahələrə transfer olunur.

Beləliklə, dövlət və özəl subyektlərin birgə fəaliyyəti innovativ iqtisadiyyatın formalaşmasının əsas dayağı hesab olunur.

**2. Dövlət-özəl əməkdaşlığının resurs bazasının formalaşdırılması**

Məqalədə vurğulandığı kimi, dövlət-özəl əməkdaşlığının ən mühüm nəticələrindən biri innovativ inkişaf üçün ayrılan resursların həcminin artmasıdır. Dövlət strukturları və özəl sektor birgə şəkildə elmi, texnoloji və intellektual potensialın artırılmasına yönəlmiş layihələr həyata keçirir.

Resursların düzgün bölüşdürülməsi üçün aşağıdakı istiqamətlər vacibdir:

- maliyyə axınlarının şəffaf idarə olunması;
- intellektual mülkiyyətin qorunması mexanizmlərinin təkmilləşdirilməsi;
- tərəfdaşlar arasında gəlir və məsuliyyət bölgüsünün hüquqi əsaslarının müəyyən edilməsi.

**3. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında dövlət-özəl əməkdaşlığının rolu**

Azərbaycanın postmünaqişə dövründə qarşısında duran əsas vəzifələrdən biri

işğaldan azad edilmiş ərazilərin bərpası və iqtisadi dövriyyəyə qaytarılmasıdır. Bu istiqamətdə həyata keçirilən infrastruktur layihələri DÖƏ-nin yeni tətbiq sahəsinə çevrilmişdir.

Məsələn:

“Ağıllı kənd” və “ağıllı şəhər” layihələri — dövlətin strateji dəstəyi və özəl şirkətlərin texnoloji tətbiqləri ilə həyata keçirilir.

Enerji və nəqliyyat infrastrukturunun bərpası zamanı beynəlxalq konsorsiumlar və yerli sahibkarların birgə fəaliyyəti innovativ idarəetmə modellərinə əsaslanır.

Beləliklə, Qarabağ və Şərqi Zəngəzur DÖƏ-nin praktiki reallaşmasının laboratoriyası rolunu oynayır. [3]

**4. Milli innovasiya sistemində dövlət və özəl sektorun birgə təkamülü**

Araşdırılan problemə milli innovasiya sistemlərinin ayrılmaz tərkib hissəsi kimi baxmaq lazımdır. İnnovasiya prosesində özəl biznesin təşəbbüskarlığı mühüm rol oynasa da, dövlətin strateji dəstəyi olmadan bu prosesin davamlılığı təmin edilə bilməz.

Bu baxımdan Azərbaycan modeli aşağıdakı xüsusiyyətlərlə seçilir:

- dövlətin innovasiya proqramlarında özəl sektorun icraçı kimi iştirakı;
- elmi tədqiqatların kommersiyalaşdırılması üçün startap mexanizmlərinin yaradılması;
- dövlət tərəfindən innovativ layihələrə vergi güzəştləri və subsidiyaların verilməsi.

**5. Dövlət proqramları və idarəetmə mexanizmləri**

Azərbaycanda DÖƏ-nin həyata keçirilməsi “Dövlət proqramları”, “İnkişaf strategiyaları” və “Konsepsiyalar” vasitəsilə tənzimlənir. Bu sənədlər həm fəaliyyət istiqamətlərini, həm də icraçı subyektləri müəyyənləşdirir.

Məsələn:

“Azərbaycan Respublikasında innovasiya fəaliyyətinin inkişafı strategiyası (2022–2030)” innovasiya sisteminin hüquqi və institusional bazasının möhkəmləndirilməsini nəzərdə tutur;

İqtisadiyyat Nazirliyi, Elm və Təhsil Nazirliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və digər qurumlar bu mexanizmlərin icrasında əsas rol oynayırBu strukturlar dövlət proqramlarının icra vəziyyətinə nəzarət edir, qiymətləndirmə aparır və gələcək dövrlər üçün yeni tədbirlər planı hazırlayır.

***6. Regional innovasiya siyasəti və məkan amili***

DÖƏ-nin uğuru təkcə mərkəzi səviyyədə deyil, regionlarda da səmərəli tətbiqdən asılıdır. Beynəlxalq təcrübə göstərir ki, regional innovasiya klasterlərinin yaradılması - universitetlər, sənaye müəssisələri və dövlət strukturlarının birgə fəaliyyəti - iqtisadi artımı sürətləndirir.

Azərbaycanda bu istiqamətdə:

- Sumqayıt Kimya Sənaye Parkı;

- Pirallahı Sənaye Parkı;
- Qaradağ və Mingəçevir sənaye zonaları kimi innovativ məkan strukturları formalaşır.

Bu zonalar dövlətin inzibati dəstəyi və özəl sektorun investisiyaları ilə fəaliyyət göstərir.

***7. Beynəlxalq təcrübə və Azərbaycanın inteqrasiya potensialı***

Qlobal miqyasda ABŞ, Cənubi Koreya, Sinqapur kimi ölkələrdə DÖƏ innovasiya siyasətinin ayrılmaz hissəsidir. Bu ölkələrdə dövlət texnoparkların yaradılmasına dəstək verir, özəl sektor isə yeni texnologiyaların tətbiqinə investisiya yatırır.

Azərbaycan da bu təcrübəni mərhələli şəkildə tətbiq edir:
- beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq;
- xarici texnologiya şirkətləri ilə birgə layihələr;
- qrant və fond mexanizmlərinin genişləndirilməsi.

Bu inteqrasiya prosesi Azərbaycanın innovativ iqtisadiyyatının qlobal dəyər zəncirlərinə qoşulmasını təmin edir.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Dövlət-özəl əməkdaşlığı innovativ inkişafın əsas strateji dayaqlarından biridir. Azərbaycanda bu mexanizmin səmərəli təşkili üçün aşağıdakı istiqamətlərdə fəaliyyətin gücləndirilməsi məqsədəuyğundur:

**Normativ-hüquqi bazanın təkmilləşdirilməsi** – DÖƏ layihələrinin hüquqi və maliyyə çərçivəsi beynəlxalq standartlara uyğunlaşdırılmalıdır.

**Elmi-tədqiqatların kommersiyalaşdırılması** – universitet və elmi mərkəzlərin nəticələri özəl sektorla birləşdirilməlidir.

**Regional səviyyədə innovasiya klasterlərinin inkişafı** – Qarabağ və Şərqi Zəngəzurda yaradılan sənaye zonaları bu model üçün nümunə olmalıdır.

**İctimai məlumatlılığın artırılması** – əldə olunan nailiyyətlərin ictimailəşdirilməsi yeni tərəfdaşlıq formalarının yaranmasına təkan verəcək.

**Kadr potensialının gücləndirilməsi** – innovasiya menecerləri, layihə idarəçiləri və tədqiqatçılar üçün xüsusi təlim proqramları təşkil edilməlidir.Nəticə olaraq qeyd etmək olar ki, dövlət-özəl əməkdaşlığının innovativ inkişafın təmin olunmasında rolu çoxşaxəlidir. Bu əməkdaşlıq modeli yalnız iqtisadi səmərəlilik baxımından deyil, həm də sosial və elmi-texnoloji tərəqqi istiqamətində əhəmiyyətli təsir göstərir. Müasir şəraitdə innovasiya sistemlərinin inkişafında dövlətin rolu daha çox tənzimləyici, təşviqedici və koordinasiyaedici xarakter daşıyır. Özəl sektor isə resursların çevik idarəedilməsi, bazar tələblərinə uyğun yeni texnologiyaların tətbiqi və təşəbbüskarlığın artırılması istiqamətində mühüm funksiyaları yerinə yetirir.

Azərbaycan Respublikasında dövlət-özəl əməkdaşlığının genişləndirilməsi istiqamətində həyata keçirilən siyasətlər ölkənin innovativ iqtisadiyyat modelinə keçidini sürətləndirir. Bu prosesdə dövlətin əsas vəzifəsi sahibkarların təşəbbüslərinin dəstəklənməsi, investisiya risklərinin azaldılması, texnoparklar, sənaye zonaları və innovasiya mərkəzlərinin fəaliyyətinin stimullaşdırılmasıdır. Özəl sektor üçün isə əsas hədəf texnoloji yeniliklərin tətbiqi və rəqabətqabiliyyətli məhsulların istehsalıdır.

Nəticə etibarilə, dövlət və özəl tərəfdaşlığının qarşılıqlı əlaqəsi innovativ iqtisadiyyatın formalaşmasında əsas hərəkətverici qüvvə kimi çıxış edir. Bu əməkdaşlığın səmərəliliyini artırmaq üçün qanunvericilik bazasının təkmilləşdirilməsi, kadr potensialının artırılması və beynəlxalq təcrübənin adaptasiyası istiqamətində fəaliyyətlər davam etdirilməlidir.

Beləliklə, dövlət və özəl sektorun koordinasiyalı fəaliyyəti innovasiya yönümlü iqtisadiyyatın qurulmasına, regional bərpa proseslərinin sürətləndirilməsinə və ölkənin uzunmüddətli inkişaf strategiyasının reallaşdırılmasına xidmət edir.

***İstifadə edilmiş ədəbiyyat:***

**1**. Məmmədova F., Fətahova N., Məmmədov Ş., Gasımov R., Əliyev Ş. Governmental management of social housing as an element of state social policy: Bibliometric analysis. Problems and Perspectives in Management, Volume 22, Issue 2.
https://www.businessperspectives.org/index.php/journals/problems-and-perspectives-in-management/issue-455/governmental-management-of-social-housing-as-an-element-of-state-social-policy-bibliometric-analysis

**2.** M.A.Məmmədov, X.İ.Qəniyev. (2023). Qarabağ və Şərqi Zəngəzur iqtisadiyyatının ölkə iqtisadiyyatına reinteqrasiyasının təşkilatı-iqtisadi mexanizmi. Uluslararası Türk Dünyası Sosyal Bilimler Kongresi. "Taslak" Tam Metin Bildiri Kitabı, Türkiyə Respublikası. Səh. 140-146. www.turkkongre.com

**3.** M.A.Məmmədov, N.E.Hacızadə. (2023). Organizational and economic mechanisms of the infrastructure restoring in the territories liberated from occupation. Beynəlxalq elmi konfrans, Səh.177-187.
https://timjurnal.az/jurnal/isgaldan-azad-edilmis-erazilerin-olke-iqtisadiyyatina-reinteqrasiyasi-hedefler-ve-istiqametler-3/

**4.** İbrahimov, A. (2024). "Dövlət-Özəl Əməkdaşlığının İnnovativ İnkişafdakı Rolu". Azərbaycan Dövlət İqtisad Universiteti. UNEC.

**Sh.I.Aliyev**
*PhD student, Azerbaijan University of Architecture and Construction*
*ORCID 0000-0001-7272-3417*

## The role of public-private partnership in innovative development: approaches and perspectives in Azerbaijan practice

**Abstract**

*The article analyzes the role of the interaction of the public and private sectors in accelerating innovative development. The effective organization of public-private cooperation (PPC) mechanisms creates conditions for increasing innovation resources, developing technological potential and socio-economic revival of regions. The study examines the features of the joint activities of public and private entities in the process of restoring the Karabakh and East Zangezur economic regions, and identifies directions for improving existing mechanisms.*

***Keywords:*** *public-private cooperation, innovation, economic development, Karabakh, East Zangezur, innovation system, strategic management.*